Azərbaycan Respublikası adından

# Q Ə T N A M Ə

İş № 2(103)-2428/2010

«05» iyul 2010-cu il                                        Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin
mülki işlər üzrə kollegiyası

Hakimlər: Əsədov Mehti Fəyyaz oğlunun sədrliyi və məruzəsilə,
Tağızadə Mirzə Nəsib oğlu və Səmədov Tofiq Səməd oğlundan ibarət tərkibdə, məhkəmə iclas katibi Tanrıverdiyeva Aysel Novqubat qızı,
iddiaçı «Azərbaycan Beynəlxalq Bankı» ASC-nin etibarnamə üzrə nümayəndəsi Həsənəliyev Elçin Məhsim oğlunun, cavabdeh «Kredobank» ASC-nin etibarnamə üzrə nümayəndəsi Həmidov Kamran Böyükağa oğlunun iştirakları ilə,

Nərimanov Rayon Məhkəməsinin 26 fevral 2010-cu il tarixli qətnaməsindən iddiaçı «Azərbaycan Beynəlxalq Bankı» ASC və cavabdeh Xanəliyeva Zəhra Hüseynqulu qızının etibarnamə üzrə nümayəndəsi Qasımov Telman Abiəli oğlu tərəfindən verilmiş apellyasiya şikayətlərinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında açıq məhkəmə iclasında baxaraq,

m ü ə y y ə n   e t d i :

İddiaçı «Azərbaycan Beynəlxalq Bankı» ASC cavabdehlər «Kredobank» ASC-yə və Xanəliyeva Zəhra Hüseynqulu qızına qarşı ipotekaya qoyulmuş mənzilin hərracdan satılması və kredit borcunun tutulması tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, «Kredobank» ASC-dən «Azərbaycan Beynəlxalq Bankı» ASC-nin xeyrinə 100.000 ABŞ dolları əsas borc, 1.734,67 ABŞ dolları faiz borcu, 6.622,22 ABŞ dolları dəbbə pulu, cəmi 108.356,89 ABŞ dolları məbləğində borcun və ödənilmiş 20 manat dövlət rüsumunun tutulması, Xanəliyeva Zəhra Hüseynqulu qızının mülkiyyətində olan Bakı şəhəri Nəsimi rayonu Nizami küçəsində istifadədə olan 0.38086 ha torpaq sahəsində yerləşən 137 №-li 5 mərtəbəli binada 77,5 $m^2$ yaşayış sahəsindən ibarət 5 otaqlı 105 nömrəli mənzilə tutma yönəldilməsi, həmin mənzildə yaşayan şəxslərin yaşayış hüququna xitam verilməsi,

mənzilin boşaldılaraq açıq hərracdan satılması, əldə olunmuş vəsaitin «Kredobank» ASC-nin «Azərbaycan Beynəlxalq Bankı» ASC-yə olan borcunun ödənilməsinə yönəldilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Nərimanov Rayon Məhkəməsinin 26 fevral 2010-cu il tarixli qətnaməsi ilə iddia qismən- cavabdeh «Kredobank» ASC-dən 100.000 ABŞ dolları əsas borc, 1.734,67 ABŞ dolları faiz borcu, 6.622,22 ABŞ dolları dəbbə pulu, cəmi 108.356,89 (bir yüz səkkiz min üç yüz əlli altı dollar səksən doqqud sent) ABŞ dolları məbləğində borc ödəniş günü üçün məzənnə üzrə manatla və ödənilmiş 20 manat dövlət rüsumu iddiaçı «Azərbaycan Beynəlxalq Bankı» ASC-nin xeyrinə tutulması, tutmanın ipoteka ilə yüklü edilmiş mənzilə yönəldilməsi, cavabdeh Xanəliyeva Zəhra Hüseynqulu qızının mülkiyyətində olan Bakı şəhəri, Nəsimi rayonu, Nizami küçəsində istifadədə olan 0.38086 ha torpaq sahəsində yerləşən 137 №-li 5 mərtəbəli binada 77,5 $m^2$ yaşayış sahəsindən ibarət 5 otaqlı 105 nömrəli mənzil açıq hərracdan satılması, satışdan əldə olunmuş vəsait hesabına cavabdeh «Kredobank» ASC-nin «Azərbaycan Beynəlxalq Bankı» ASC-yə olan 108.356,89 (bir yüz səkkiz min üç yüz əlli altı dollar səksən doqqud sent) ABŞ dolları məbləğində borcu və dövlət rüsumu kimi ödənilmiş 20 manat ödənilməsi hissəsində təmin edilərək iddia qalan hissədə təmin edilməmişdir.

Qeyd olunan qətnamədən iddiaçı «Azərbaycan Beynəlxalq Bankı» ASC və cavabdeh Xanəliyeva Zəhra Hüseynqulu qızının etibarnamə üzrə nümayəndəsi Qasımov Telman Abiəli oğlu apellyasiya şikayətləri vermişlər.

İddiaçı «Azərbaycan Beynəlxalq Bankı» ASC apellyasiya şikayətinin təmin olunaraq iş üzrə Nərimanov Rayon Məhkəməsinin 26 fevral 2010-cu il tarixli qətnaməsinin ləğv olunaraq, iddia tələbinin tam təmin olunması barədə yeni qətnamə qəbul edilməsini xahiş etməklə apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, ipoteka müqaviləsində ipoteka qoyan şəxs və ailə üzvü tərəfindən tutma ipotekaya yönəldildikdə mənzilin boşaldılmasına öhdəlik götürülməsinə baxmayaraq birinci instansiya məhkəməsi iddianı həmin hissədə təmin etməyərək səhv nəticəyə gəlmişdir.

Cavabdeh Xanəliyeva Zəhra Hüseynqulu qızının etibarnamə üzrə nümayəndəsi Qasımov Telman Abiəli oğlu apellyasiya şikayətinin təmin olunaraq iş üzrə Nərimanov Rayon Məhkəməsinin 26 fevral 2010-cu il tarixli qətnaməsinin ləğv olunaraq, iddiaçının iddia tələbinin tutmanın ipoteka ilə yüklü edilmiş mənzilə yönəldilməsi, cavabdeh Xanəliyeva Zəhra Hüseynqulu qızının mülkiyyətində olan Bakı şəhəri, Nəsimi rayonu, Nizami küçəsində istifadədə olan 0,38086 ha torpaq sahəsində yerləşən 137 saylı 5 mərtəbəli binada 77,5 kv.m yaşayış sahəsindən ibarət 5 otaqlı 105 saylı mənzilin açıq hərracdan satılması, satışdan əldə olunmuş vəsait hesabına cavabdeh «Kredobank» ASC-nin «Azərbaycan Beynəlxalq Bankı» ASC-yə olan 108.356,89 (bir yüz səkkiz min üç yüz əlli altı dollar səksən doqqud sent) ABŞ dolları məbləğində borcun və dövlət rüsumu kimi ödənilmiş 20 manat ödənilməsi, «Azərbaycan Beynəlxalq Bankı» ASC-nin tələbləri ödənildikdən sonra qalan məbləğin Xanəliyeva Zəhra Hüseynqulu qızına qaytarılması hissəsinin tamamilə rədd edilməsi barədə yeni qətnamə qəbul edilməsini xahiş etməklə apellyasiya şikayəti yalnız onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsi iş üzrə əsas cavabdeh olan «Kredobank» ASC-nin nümayəndəsinin iştirakı olmadan işə baxmış, Xanəliyeva tərəfindən borcun ödənilməməsinin səbəbi araşdırılmamışdır.

Məhkəmə iclasının vaxtı və yeri haqqında cavabdeh Xanəliyeva Zəhra Hüseynqulu qızına və onun etibarnamə üzrə nümayəndəsi Qasımov Telman Abiəli oğluna müvafiq qaydada məlumat verilməsinə baxmayaraq məhkəmə iclasına gəlməmişlər və gəlməmələrinin səbələri barədə məhkəməyə heç bir məlumat daxil olmamışdır. Məhkəmə kollegiyası Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 376.2-ci maddəsinin tələblərini rəhbər tutaraq gəlməyən tərəflərin iştirakları olmadan işə baxılmasını mümkün saydı.

Məhkəmə kollegiyasının iclasında iddiaçı «Azərbaycan Beynəlxalq Bankı» ASC-nin etibarnamə üzrə nümayəndəsi Həsənəliyev Elçin Məhsim oğlu tərəflərindən verilmiş apellyasiya şikayətini müdafiə edərək, cavabdeh Xanəliyeva tərəfindən verilmiş apellyasiya şikayətinin dəlilləri ilə razılaşmayaraq, iddia ərizəsi və apellyasiya şikayətinin dəlillərinə uyğun izahat verərək apellyasiya şikayətinin təmin olunaraq iş üzrə Nərimanov Rayon Məhkəməsinin 26 fevral 2010-cu il tarixli qətnaməsinin iddianın təmin edilməyən hissəsində ləğv olunaraq, iddia tələbinin tam təmin olunması barədə yeni qətnamə qəbul edilməsini xahiş etdi.

Məhkəmə kollegiyasının iclasında cavabdeh «Kredobank» ASC-nin etibarnamə üzrə nümayəndəsi Həmidov Kamran Böyükağa oğlu cavabdeh Xanəliyeva tərəfindən verilmiş apellyasiya şikayətlərinin dəlilləri ilə razılaşmayaraq, izahatında göstərmişdir ki, «Kredobank» ASC ilə bağlanmış 04 aprel 2007-ci il tarixli kredit müqaviləsinə əsasən Xanəliyeva Zəhra Hüseynqulu qızına 200.000 ABŞ dolları məbləğində kredit verilmiş, həmin məbləğin kredit verilməsi üçün «Kredobank» ASC ilə «Azərbaycan Beynəlxalq Bankı» ASC arasında 500.000 manat məbləğində 12 mart 2007-ci il tarixli kredit müqaviləsi bağlanmış, müqavilə üzrə öhdəliklərin icra olunmasının təminatı olaraq Xanəliyeva Zəhra Hüseynqulu qızının mülkiyyətində olan Bakı şəhəri, Nizami küçəsi, 137 saylı evin 105 saylı mənzili «Kredobank» ASC ilə bağlanmış 12 mart 2007-ci il tarixli kredit müqaviləsinə görə «Azərbaycan Beynəlxalq Bankı» ASC qarşısında ipoteka ilə yüklü edilmişdir. Xanəliyeva tərəfindən kredit müqaviləsi üzrə üzərinə götürdüyü öhdəliklər vatlı-vaxtında icra edilmədiyi üçün«Azərbaycan Beynəlxalq Bankı» ASC qarşısında kredit öhdəliklərini yerinə yetirə bilməmişlər. Nərimanov Rayon Məhkəməsinin 05 mart 2010-cu il tarixli qətnaməsi ilə Xanəliyeva Zəhra Hüseynqulu qızından «Kredobank» ASC-nin xeyrinə 257.210 ABŞ dolları məbləğində kredit borcu tutulması barədə iddiaları təmin edilmişdir. Cavabdeh Xanəliyeva tərəfindən verilmiş apellyasiya şikayətinin təmin olunmadan iş üzrə Nərimanov Rayon Məhkəməsinin 26 fevral 2010-cu il tarixli qətnaməsinin Xanəliyevaya münasibətdə dəyişdirilmədən saxlanılmasını xahiş etməklə iddiaçı «Azərbaycan Beynəlxalq Bankı» ASC tərəfindən verilmiş apellyasiya şikayətini məhkəmənin mülahizəsinə verməsini bildirdi.

Məhkəmə kollegiyası izahatları dinləyərək, apellyasiya şikayətlərinin dəlillərini və iş materiallarını araşdıraraq, işdə olan sübutları tədqiq edərək hesab edir ki, iş üzrə Nərimanov Rayon Məhkəməsinin 26 fevral 2010-cu il tarixli qətnaməsi dəyişdirilmədən, apellyasiya şikayətləri isə təmin edilmədən saxlanılmalıdır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 372.7-ci maddəsinin tələbinə görə apellyasiya instansiyası məhkəməsi şikayətin dəlillərindən asılı olmayaraq, məhkəmənin maddi və prosessual hüquq normalarına riayət etməsini yoxlayır.

Həmin Məcəllənin 217.2-ci maddəsinə görə qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

Aşağıdakılara əsasən məhkəmə kollegiyası hesab edir ki, birinci instansiya məhkəməsinin iş üzrə gəldiyi nəticə qanuni və əsaslı olmaqla işin hallarına uyğundur.

İş materialları və tərəflərin izahatları ilə təsdiq olunmuşdur ki, «Azərbaycan Beynəlxalq Bankı» ASC ilə «Kredobank» ASC arasında kredit verilməsi haqqında 12 mart 2007-ci il tarixli 1863 saylı kredit müqaviləsinə əsasən «Azərbaycan Beynəlxalq Bankı» ASC tərəfindən «Kredobank» ASC-yə illik 16 faiz ödənilməsi şərti ilə 12 ay müddətinə 500.000 ABŞ dolları məbləğində kredit verilmiş, həmin müqaviləyə 18 aprel 2008-ci il tarixli 1 saylı əlavəyə əsasən müqaviləyə dəyişiklik edilməklə kredit vəsaitindən istifadə müddəti 24 ay, son tarix 12 mart 2009-cu il kimi qeyd edilmişdir,12 mart 2007-ci il tarixli ipoteka müqaviləsinə əsasən bank tərəfindən həmin tarixli kredit müqaviləsi üzrə öhdəliklərin təminatı kimi Xanəliyeva Zəhra Hüseynqulu qızına məxsus olan Bakı şəhəri Nəsimi rayonu Nizami küçəsində istifadədə olan 0.38086 ha torpaq sahəsində yerləşən 137 №-li 5 mərtəbəli binada 77,5 $m^2$ yaşayış sahəsindən ibarət 5 otaqlı 105 nömrəli mənzil ipoteka ilə yüklü edilmişdir, ipoteka ilə yüklü edilmiş əmlakın dəyəri tərəflərin qarşılıqlı razılaşmasına əsasən 339.000 manat dəyərində qiymətləndirilmişdir, 12 mart 2007-ci il tarixli ipoteka müqaviləsi hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmışdır, cavabdeh «Kredobank» ASC kredit müqaviləsi üzrə «Azərbaycan Beynəlxalq Bankı» ASC-dən 500.000 ABŞ dolları məbləğində pulu kredit müqavilənin şərtlərinə uyğun qaytarılmasını təmin etməsinə dair bank qarşısında öhdəliklər götürmüş, lakin ödənişləri vaxtı-vaxtında və tam həcmdə yerinə yetirməyərək, öhdəliklərini icra etməmişdir, cavabdeh «Kredobank» ASC-nin 100.000 ABŞ dolları əsas borc, 1.734,67 ABŞ dolları faiz borcu, 6.622,22 ABŞ dolları dəbbə pulu, cəmi 108.356,89 ABŞ dolları məbləğində borcu yaranmışdır, ipoteka predmetinə tutmanın yönəldilməsi haqqında bildiriş Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX-nin Bakı şəhər Ərazi İdarəsi tərəfindən qeydə alınmışdır.

Birinci instansiya məhkəməsi Azərbaycan Respublikası Mülki Məcəlləsinin 6.2, 385.1, 386.1, 442, 445, 448.1 və 421.2-ci maddələrinə eləcədə «İpoteka haqqında» Azərbaycan Respublikası Qanununun 6.1, 34.1.1 və 34.1.2-ci maddələrinə istinad edərək bu qənaətə gəlmişdir ki, cavabdeh «Kredobank» ASC-dən 100.000 ABŞ dolları əsas borc, 1.734,67 ABŞ dolları faiz borcu, 6.622,22 ABŞ dolları dəbbə pulu, cəmi 108.356,89 ABŞ dolları məbləğində borc ödəniş günü üçün məzənnə üzrə manatla və ödənilmiş 20 manat dövlət rüsumu iddiaçı «Azərbaycan Beynəlxalq Bankı» ASC-nin xeyrinə tutulmalı, tutma ipoteka ilə yüklü edilmiş mənzilə yönəldilməli, cavabdeh Xanəliyeva Zəhra Hüseynqulu qızının mülkiyyətində olan Bakı şəhəri Nəsimi rayonu Nizami küçəsi 137 №-li 5 mərtəbəli binada 77,5 $m^2$ yaşayış sahəsindən ibarət 5 otaqlı 105 nömrəli mənzilə yönəldilməli, həmin əmlak açıq hərracdan satılmalı, əldə olunmuş vəsait hesabına cavabdeh «Kredobank» ASC-nin «Azərbaycan Beynəlxalq Bankı» ASC-yə olan borcu və dövlət rüsumu ödənilməli, «Azərbaycan Beynəlxalq Bankı» ASC-nin tələbləri ödənildikdən sonra qalan məbləğ Xanəliyeva Zəhra Hüseynqulu qızına qaytarılmalıdır.

Birinci instansiya məhkəməsi «İpoteka haqqında» Azərbaycan Respublikası Qanununun 59.1, 59.3-ci və 59.4-cü maddələrinə istinad edərək hesab etmişdir ki, hazırda

ipoteka predmetinə tutmanın yönəldilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi olmadığından və həmin mənzil satılmadığından hazırkı mərhələdə iddianın həmin mənzildə yaşayan şəxslərin yaşayış hüququna xitam verilməsi və mənzilin boşaldılması hissəsi təmin edilə bilməz, qeyd olunan normalara əsasən ipoteka predmeti olan mənzildən ipoteka qoyanın və onun ailə üzvlərinin çıxarılması üçün müvafiq qayda müəyyən edilmişdir və ipoteka predmeti olan mənzilə tutma yönəldikdə və o satıldıqda ipoteka qoyan və onunla birlikdə yaşayan ailə üzvləri və digər şəxslər ipoteka qoyulmuş yaşayış sahəsini 1 ay müddətində tərk etmədikləri halda, onlar məhkəmə qərarı əsasında məcburi qaydada çıxarıla bilərlər.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2-ci maddəsinə əsasən, məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Bu Məcəllənin 77.1-ci maddəsinə əsasən, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

Həmin Məcəllənin 88-ci maddəsinin tələbinə görə məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 217.3-cü maddəsinə əsasən qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

Həmin Məcəllənin 217.4-cü maddəsinə əsasən məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

Kollegiya hesab edir ki,  birinci instansiya məhkəməsinin qətnaməsi faktlar nöqteyi nəzərindən qanuni və əsaslıdır, apellyasiya şikayətlərinin dəlilləri formal mülahizələrə əsaslanmaqla məhkəmə qətnaməsinin ləğv edilməsi üçün əsaslar yoxdur, maddi və prosessual hüquq normaları birinci instansiya məhkəməsi tərəfindən düzgün tətbiq olunmuşdur. Ona görə də iş üzrə məhkəmə qətnaməsi dəyişdirilmədən, apellyasiya şikayətləri isə təmin edilmədən saxlanılmalıdır.

Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 382, 384.0.1, 392, 393, 402-406-cı maddələrinin tələblərini rəhbər tutaraq,

q ə t   e t d i :

İddiaçı «Azərbaycan Beynəlxalq Bankı» ASC və cavabdeh Xanəliyeva Zəhra Hüseynqulu qızının etibarnamə üzrə nümayəndəsi Qasımov Telman Abiəli oğlu tərəfindən verilmiş apellyasiya şikayətləri təmin edilməsin.

İş üzrə Nərimanov Rayon Məhkəməsinin 26 fevral 2010-cu il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qətnamədən rəsmi qaydada verildiyi gündən iki ay müddətində Azərbaycan Respublikasının Ali Məhkəməsinə Bakı Apellyasiya Məhkəməsi vasitəsilə kassasiya şikayəti verilə bilər.